**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ƏN YENİ RUS NƏSRİNDƏ SİMVOLİKA VƏ ONUN BƏDİİ FUNKSİYALARI

İxtisas: 5715.01 – Ədəbiyyat nəzəriyyəsi, ədəbi tənqid və təhlil

Elm sahəsi: Filologiya

İddiaçı: **Sevinc Həsən qızı Əliyeva**

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı–2023**

Dissertasiya işi Bakı Slavyan Universitetinin Ədəbiyyat nəzəriyyəsi və dünya ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Flora Sultan qızı Naciyeva**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**Leyla Əkrəm qızı Mirzəyeva**

filologiya elmləri doktoru, professor
**Asif Abbas oğlu Hacıyev**

filologiya elmləri doktoru, dosent
**Rəhim Nadir oğlu Əliyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Slavyan Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.13 – Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: __________________
filologiya elmləri doktoru, professor
**Rəhilə Hüseyn qızı Quliyeva**

Dissertasiya şurasının elmi katibi: __________________
filologiya üzrə fəlsəfə doktoru
**Suad Arif qızı Əfəndiyeva**

Elmi seminarın sədri: __________________
filologiya elmləri doktoru, professor
**Naidə Camal qızı Məmmədxanova**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Bu tədqiqatda mövzunun aktuallığı ədəbiyyatşünaslıqda mövcud olan simvolun təbiətinin öyrənilməsi problemini, simvolikanın bədii yaradıcılıqda rolu və işləmə üsulları və müasir nəsrdə bədii simvolikanın kifayət qədər öyrənilməməsi məsələsini əhatə edir.

Ədəbiyyatda və ümumən incəsənətdə simvol anlayışı ən mübahisəli və ziddiyyətli anlayışlardan biridir. Bir çox tədqiqatçı vaxtaşırı olaraq “simvol” anlayışını “alleqoriya”, “emblem”, “şəxsləndirmə / personifikasiya” və hətta “bədii obraz”la dəyişik salır, yaxud eyniləşdirirlər.

Bədii simvolun spesifikası antik dövrdən başlayaraq dəfələrlə tədqiqat predmetinə çevrilmişdir, ədəbiyyatşünaslıqda, o cümlədən ədəbiyyat nəzəriyyəsində inkişafın hər bir yeni mərhələsi hər dəfə simvol anlayışına və onun bədii yaradıcılıqda fəaliyyətinə yeni bir şey əlavə etmişdir. Bu günə qədər simvol və dünya ədəbiyyatında yerini almış simvolika problemi ilə bağlı geniş material toplanmışdır. Buraya S.S. Averinsevin, A.N.Veselovskinin, M.M. Baxtin, V.M. Jirmunski, A.F.Losev, Y.M.Lotman, Q.N.Pospelov, V.N.Toporov və bir çox başqa alimlərin fundamental araşdırmaları, o cümlədən bu məsələlərlə bağlı geniş elmi informasiyanın toplandığı sorğu və ensiklopedik ədəbiyyat daxildir. Simvol probleminə bu və ya digər şəkildə müraciət etmiş bir sıra azərbaycanlı tədqiqatçılarının işləri də nəzərdən keçirilmişdir (M.Abbasova, İ.Abdullayeva, A.Gül, F.Əfəndi və s).

Qeyd etmək lazımdır ki, sovet dövrü ədəbiyyatında “simvol” anlayışının araşdırılması alqışlanmırdı, “simvolizm” cərəyanı isə rəsmi ideologiyaya yad bir cərəyan kimi qəbul olunurdu. Bu təkçə rus ədəbiyyatını deyil, ümumiyyətlə keçmiş Sovet İttifaqında olan bütün milli ədəbiyyatları, həmçinin azərbaycan ədəbiyyatını xarakterizə edirdi. Halbuki XIX əsrin sonu, XX əsrdə ədəbiyyat və incəsənətdə kifayət qədər əhəmiyyətli cərəyanlardan biri olan simvolizm əsasında və onun təmsilçiləri olan simvolistlər tərəfindən simvolun geniş və universal keyfiyyətinə dair ideya irəli sürülmüşdü.

Simvolizm nəzəriyyəsinin öyrənilmə tarixi yekcins deyildi və bu cərəyanın ardıcıllarının bir sıra estteik məqsədlərindən və cəmiyyətdə baş verən çoxsaylı ictimai-tarixi dəyişikliklərdən asılıdır. XX əsrin birinci yarısında simvolizm haqqında bir sıra işlər qadağan edilmişdi, çünki o araşdırmlarada "mistikanın" üstünlüyünü, yaxud sovet ideologiyası ilə bir araya sığmayan dini doqmalrın ifadəsinə qayıdış sezilmişdi. Ancaq qabaqcıl alimlər məsələnin bu şəkildə qoyuluşu ilə qəti razılaşmırdılar. Belə ki, A.Losev, M.Baxtin kimi alimlər simvolizm nəzəriyyəsinin müdafiəsinə açıq şəkildə qalxdılar. Onların irsinin öyrənilməsi bu gün əhəmiyyətli və aktualdır.

**İşin elmi yeniliyi.** Bu tədqiqatın elmi yeniliyinə simvol anlayışının məzmunu, mahiyyəti və spesifikası, bədii simvolun rolu və funksional əhəmiyyəti, eyni zamanda onun bu aspektdə müasir ədəbiyyatşünaslıqda kifayət qədər öyrənilməmiş müasir yazıçıların dissertasiya işinin mövzusunun araşdırılması baxımından zəngin material verən konkret mətnləri əsasında ən yeni rus nəsrində parktiki tətbiqi ilə bağlı nəzəri problemlərin araşdırlması daxildir.

Filologiya elmində ilk dəfə olaraq rus və Qərbi Avropa ədəbiyyatı nümunəsində antik dövrdən XX əsrin sonlarına qədərki dövrün zaman diapazonunda böyük və çox şaxəli simvollar sisteminin vahid məcrada və kompleks şəkildə öyrənilməsinə cəhd edilir. Müqayisəli təhlil aspektində simvolika probleminə müraciət etmiş nüfuzlu alimlərin nəzəri müddəaları nəzərdən keçirilmişdir.

Bədii simvolika probleminin nəzəri təhlili simvollardan istifadəyə xüsusi diqqət yetirən ayrı-ayrı yazıçıların əsərlərinin konkret təhlilinə əsaslanır. Beləliklə, simvolikanın fikrimizcə, ən yeni nəsrin bu planda ən az öyrənilmiş aspektlərinin ümumi mənzərəsi yaradılır.

**Müdafiəyə aşağıdakı müddəalar çıxarılır:**

1. Simviol bəzən leksik sinonimlər kimi işlədilən təsvir, obraz, oxşarlıq, bənzətmə, güzgü, işarə, alleqoriya, rəmz, tapmaca və sair bu kimi terminlər arasında ən mühüm olanıdır, belə ki, fikrimizcə, məhz bu termində mənəvi gerçəkliyin obrazlı ifadəsinin əsas dünyaduyum ideyası yer alır.

1. Bir müstəqil cərəyan kimi XIX sərin sonu, XX əsrin əvvəllərində Fransada formalaşmış simvolizm genetik baxımdan ümumavropa romantizmindən qaynaqlanır. Hər iki cərəyan üçün spesifik olan "iki dünyalıq" yazıçı simvolistlərin bir sıra əsərlərinin süjetində mühüm rol oynamışdır.

2. "Gümüş əsrin" rus simvolist şairlərini - Bryusov, Minski, Soloqub, Merejkovski və digərlərini bir-biri ilə təkcə eyni dünyaduyumu deyil, həm də mətnlərdə müvafiq simvolların işlənməsinə fərdi yanaşma birləşdirirdi.

3. Konkret obrazı şərti obrazla əvəzləmək, təsvir edilən hadisənin obyektiv mahiyyətindən uzaqlaşmaq kimi cəhdlərlə simvolizmi bədiiliyin elemnti olan, həm romantik, realist və postmodernist mətnlərin çərçivəində peyda ola bilən simvolikadan fərqləndirmək lazımdır.

4. Bədii simvolika sənətkarın yaratdığı dünya mənzərəsini təhrif etmir, əksinə, məzmunun genişlənməsinə stimul yaradır, mətnlə ifadə olunan mənanı dərinləşdirir, bununla da müəllifin ideyasının açılmasına təkan verir.

5. Bədii yaradıcılıqda simvolikadan istifadə sənətkarın mental xüsusiyyətləri və milli tarixlə sıx bağlıdır.

6. Bir sıra yazıçıların yaradıcılığı (məsələn, B.Akunin, V.Pelevin, T.Tolstaya, L.Uliskaya) onların əsərlərinin dilindəki sakral işarə və simvolikanın geniş istifadəsi sayəsində kütləvi deyil, elitar mədəniyyətin nümunəsidir.

7. Geniş təsvir imkanları, çox sayda assosiasiya yaratmaq qabiliyyəti, oxucunu yazıçı ilə birlikdə yaradıcılığa qoşulmağa vadar etmək – bütün bunlar bədii simvolikanı bədii əsərin müəllif ideyası və niyyətini açmağa yardım edən əsas komponentlərdən biri hesab etməyə imkan verir.

**Tədqiqatın məqsədi** bədii simvolikanın spesifikasını və onun bədii ədəbiyyatda, xüsusən ən yeni rus nəsrində işlənmə formasını öyrənməkdir.

Bu məqsəd aşağıdakı vəzifələrin müəyyənləişdirilməsini və həllini diktə edir:

Alimlərin müxtəlif dövrlərdə qələmə aldıqları əsərlərində (Antik dövr mütəfəkkirlərindən XX əsr tədqiqatçılarına qədər)

“simvol” kateqoriyasının mənasını və onun elmi interpretasiyasını nəzərdən keçirmək;

Simvolun spesifikasını aşkarlamaq üçün simvolla ona yaxın olan kateqoriyalar arasında paralellər aparmaq: obraz, işarə, alleqoriya, metafora və sair;

- Əvvəlki dövrlərin rus və Qərbi Avropa müəlliflərinin bədii əsərlərində oynadıqları rolu göstərməklə simvolların əsas prinsip və əlamətlərini açmaq;
- Dünya və rus ədəbiyyatından konkret nümunələr əsasında simvollar sistemini analiz etmək;
- Bir sıra yazıçıların (V.Pelevin, T.Tolstaya, L.Uliskaya) əsələrinin materialı əsasında müasir nəsrdə bədii simvolların tipini və funksiyalarını aşkarlamaq;
- Tematika və müəllifin qarşısına qoyduğu məqsəddən asılı olaraq B.Akuninin romanlarında simvolları fərdiləşdirmək.

**Tədqiqatın obyektinə** simvolun təbiəti haqqında işlər, simvolizm nəzəriyyəsinə dair əsərlər, o cümlədən qoyulan problemi araşdırmaq üçün zəngin material verən ən yni dövr rus nasirlərinin əsərləri (V.Pelevin, T.Tolstaya, yaradıcılığında simvolikanın geniş yer tutduğu Boris Akunin) daxildir.

**Tədqiqatın predmeti**ni bədii simvolika və onun müasir rus nasirlərinin əsərlərində işlənmə formaları təşkil edir.

**Dissertasiyanın nəzəri-metodoloji əsası** olaraq bədii simvolun ədəbiyyatşünaslıq kateqoriyası kimi öyrənildiyi S.S.Averinsevin, M.M.Baxtin, B.M.Jirmunski, A.F.Losev, Y.M.Lotman, Q.N.Pospelov və N.Toporovun işləri, folklor poetikası ilə bağlı A.N.Veselovski və D.N.Medrişin əsərləri, o cümlədən bu və ya digər dərəcədə simvolikadan istifadənin əsas problemlərinə dair yaradıcılığı tədqiqata cəlb edilmiş yazıçıların əsərlərinin araşdırılması ilə bağlı tədqiqatlar götürülür. Müqayisəli və tipoloji metodlar əsas təhlil metodlarıdır.

Tədqiqatın **nəzəri əhəmiyyəti** bədii simvolika nəzəriyyəsinin öyrənilməsi və müasir rus nəsrində bədii simvolikanın meydana gəlmə forma və üsulları, ayrı-ayrı yazıçıların yaradıcılığında simvolik forma və özəlliklərin klassifikasiyası ilə müəyyənləşir. Sonradan unifikasiya və tipoloji çeşidlənmə üzrə simvolların müasir

rus yazıçılarının əsərlərində qruplar üzrə differensiasiya və klassifikasiyası heç də az nəzəri əhəmiyyət daşımır.

Dissertasiyanın **təcrübi əhəmiyyəti** ondadır ki, əldə edilən nəticələr humanitar yönlü ali məktəblərin filologiya fakültələrində nəzəri və tarixi-ədəbi kurslar üçün material qismində (məsələn, "Ədəbiyyat nəzəriyyəsi", "Müasir rus ədəbiyyatı tarixi" kimi kurslarda) tələbələr tərəfindən simvolika nəzəriyyəsi, V.Pelevin, T.Tolstaya, L.Uliskaya, Boris Akunin və sair yazıçıların yaradıcılığından diplom işlərinin yazılmasında istifadə edilə bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya işi Bakı Slavyan Universitetinin Ədəbiyyat nəzəriyyəsi və dünya ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir. Dissertasiya işinin əsas müddəa və nəticələri Azərbaycan, Rusiya və Fransada keçirilən elmi konfransların materiallarında əksini tapmışdır. Dərc edilmiş məqalə və konfrans materialları dissertasiyanın məzmununu tam əhatə edir.

**İşin strukturu və həcmi.** Dissertasiya işi Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün yerinə yetirilən dissertasiyalar qarşında qoyulan tələblərə uyğun tırtib edilib. Dissertasiya işi giriş (11357 şərti işarə), 3 fəsil (birinci fəsil 2 paraqraf – 84058 şərti işarə; ikinci fəsil _4_ paraqraf – 74867 şərti işarə, üçüncü fəsil, _2_ paraqraf – 65423 şərti işarə), nəticə (5964 şərti işarə) və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

Giriş - 11357 şərti işarədən, I fəsil - 84058, II fəsil - 74867, III fəsil – 65423 və nəticə - 5964 şərti işarədən ibarətdir.

Dissertasiya işinin ümumi həcmi – 241670 şərti işarədən ibarətdir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **"Giriş"**ində mövzunun aktuallığı və işlənmə dərəcəsi, dissertasiyanın elmi yeniliyi, tədqiqat metodları, obyekti və predmeti, məqsəd və vəzifələri, nəzəri-praktiki əhəmiyyəti, aprobasiyası, strukturu AAK-ın tələblərinə uyğun şəkildə göstərilmişdir.

Tədqiqat işinin "**Simvol ədəbiyyat və incəsənətdə universal kateqoiya kimi və onun fəlsəfi-estetik anlamı**" adlı birinci fəsli iki paraqrafdan ibarətdir. "**Universal kateqoriya kimi "simvol" anlayışının öyrənilmə tarixi**" adlanan birinci paraqrafda antik dövrdən başlayaraq bu anlayışa həsr edilən tədqiqat işlərinin əsas nəticələri xülasə şəklində ümumiləşdirilir. Hər şeydən qabaq, ədəbiyyatşünaslıq araşdırmasının predmeti kimi "simvol" anlayışının özü dəqiqləşdirilir. Ədəbiyyatda simvolun ən ümxtəlif tərəflərini nəzərdən keçirib belə bir nəticəyə gəlirik ki, bu, ən ümumi şəkildə özünü şərti əlamətlərlə ifadə edən real mənzərə ilə onun metafizik mənasının birləşməsidir. Ədəbiyyatda simvol əşyalar və onların əlamətləri, heyvanlar, təbiət hadisələri, qəhrəman obrazları və sair ola bilər. Ədəbiyyatda eyni simvollar ən müxtəlif müəlliflərin əsərlərində bir poetik nəsildən digərinə ötürülən yeni məna nüansları ilə meydana çıxa bilər.

Dünya ədəbiyyatı və incəsənətində "simvol" anlayışı mənşəcə tarixin dərinliklərindən xəbər verir. Hələ antik dövr yazıçı və filosofları (Sofokl, Aristotel, Sokrat, Platon və sair) simvolu mahir bir sənətkarın əsəri kimi qavrayırdılar, insan əli ilə istedadla yaradılmış bütün şeylərsə ilahi yaradılışla eyniləşdirilirdi. Antik dövrdə simvolik mənaların diapozonu çox geniş idi. Roma ədəbiyyatı və mədəniyyətinin tanınmış tədqiqatçısı İ.M.Tronskiy qeyd edib ki, "*simvol vasitəsi ilə antik forma və ədəbiyyatın məzmunu özünün mükəmməl bədii əksi tapmışdı*".[1] V.V.Bıçakov, antik dövr filosofu Filonun metod və mühakimələrinə söykənən "Aleksandirin məktəbindən" bəhs edərkən, qeyd edib ki, o

---

[1] Тронский И.М. История античной литературы. Л.: Учебно-педагогическое издательство Министерства Просвещения РСФСР, 1957, 485 с.

"*incəsənətdə ardıcıl şəkildə və viruoz olaraq obrazlı-simvolik qaydada həyata keçirilirdi*"[2]. Təkcə qədim şairlər deyil, həm də N.A.Maşkinin də qeyd etdiyi kimi, simvolik işarə və kateqoriyalarla düşünən adi mülki əhali də simvolikadan geniş istifadə edirdi[3].

Platonun əsərlərində həmin dövrdə gözəllik anlayışı ilə eyniləşdirilən elmi və ifrat mistik biliklərə uyğun olaraq kosmik məkan simvolundan istifadə edilir. Platonun ölümündən sonra onun şagirdləri mistik baxış və simvollardan aşıb-daşan bir sistem formalaşdırdılar[4].

Platonun və onun ardıcıllarının əsərlərində işıq simvolu mühüm işarə rolunu oynayırdı. A.F.Losevin də qeyd etdiyi kimi, "*bu yalnız dünya antik fəlsəfəsində ilk cücərtilərdən biri olmaqla simvolik işarənin rüşeymi idi*"[5]. Daha sonralar, Lukresiya özünün "Əşyaların təbiəti haqqında" poemasında simvol anlayışı və işığın izahına yeni nəfəs gətirdi. A.A. Taxo-Qodi "*simvolu əşyavi-hissi aşkarlıq*" adlandırırdı[6].

"Simvol" kateqoriyası ortaçağ mədəniyyətində mühüm əhəmiyyətə malik idi. İ.M.Nixovun qeyd etdiyi kimi, "*Orta əsərlərdə bütün axirət simvolik mahiyyətdə idi; buna görə də istənilən sırada qərar tutan hər bir əşya ikili, yaxud daha çox mənaya malik idi*"[7]. Bu tarixi dönəmdə dünya evinin dərkinə yol elə antik estetikada olduğu kimi simvol və onun əsl mənasının intelllektual dərki vasitəsi ilə mümkün idi. Ancaq antik ədəbiyyat, mədəniyyət və incəsənətdə əgər simvol və alleqoriya anlayışlarının qeyri-iradi qarışması prosesi baş verirdisə, orta əsrlərdə onlar artıq differensasiya olunmuş formada idilər. Belə ki, məsələn, silah simvolu sakral məna daşıyırdı ("Edda", "Sidin mahnısı" və sair).

---

[2] Бычков В.В. Эстетика поздней античности. М.: Наука. 1981, 315 с., с.248

[3] Машкин Н.А. История Древнего Рима. М.: Просвещение, 1947, 277 с., с.99

[4] Неоплатонизм. Режим доступа: http://rushist.com/index.php/philosophical-articles/2754-neoplatonizm

[5] Лосев А.Ф. История античной эстетики: Софисты. Сократ, Платон. М.: Художественная литература, 1962, 513 с. с.417

[6] Тахо-Годи А.А. Античная литература. М.: Просвещение, 1973, 277 с. , с.301

[7] Нахов И.М. Традиции аллегоризма в истории культуры. Сборник научных трудов. М., 1978, 214 с. ,с.69

Orta əsrlər dünya ədəbiyyatında bu kimi analoji nümunələr çoxsaylıdır.

İntibah dövründə simvolikanın istiqamətləndirici vektoru dəyişdi. Burada simvolun çoban idilliyası və ona müvafiq simvollardan istifadə edildiyi bir sıra əsərlərin süjetinə nüfuz etmiş lirik intonasiya ilə bağlı intuitiv dərki üstünlük təşkil edir. Məsələn, ilkin İntibah poeziyasında çələng məhəbbət və şöhrətin əsas simvolu kimi möhkəmlənir. İngilis tənqidçisi L.A.Vogelin simvoilimzdən bəhs edən işlərindən birində xatırlatdığı kimi, "*Petrarka üçün öz şeirlərində bu adı yada salmaq çox rahat idi, belə ki, o, şöhrətin simvolu olan dəfnə çələngi ilə həmahəng səslənirdi*"[8].

Simvolikanın ümumi konsepsiyası, birbaşa bədii əsərlərdə simvolların işlənməsi ilə bağlı bir sıra orijinal ideya və fərziyyələr A.F.Losev və M.M.Baxtin kimi böyük alimlərin əsərlərində yer alır. A.F.Losev tədqiqatlarının birində ("İşarə. Simvol. Mif") "*Qeyri-iradi funksional struktur ilə səciyyələnən obraz-simvolların çoxluq təşkil etdiyini*"[9], o cümlədən simvolun "*kontekstual əhatəsindən və yazıçının ifadə etdiyi fikirlərdən asılı olaraq ən ümxtəlif mənalara işarə edən polisemantik xarakterini*"[10] göstərir. Onun irəli sürdüyü konsepsiyada işarə və simvollar ən müxtəlif mənaların əlvan rəsmini təqdim edirdi. Losev onların bədii əsərlərdə tətbiq sferasını əhəmiyyətli dərəcədə genişləndirir. O hətta Homerin "İliada" və "Odissey" poemalarından nümunələrə daynaraq əhval çalarlarını da simvolun funksional özəlliklərinə aid edir.

Digər görkəmli rus alimi M.M.Baxtin simvol nəzəriyyəsini yetərincə zənginləşirmişdir. Onların simvol konsepsiyası biri digərindən nəzərəçarpacaq dərəcədə fərqlənir. Əgər Losev simvolların əsas funksiyalarını müəyyənləşdirərkən onların differensiasiyasına daha çox diqqət edirdisə, Baxtin əksinə, tipikləşdirməyə çalışaraq onlar üçün vahid məna

[8] Vogel L.A. Symbolist's Inferno: Blok and Dante. //Russian Review, Vol. 29. #1. N. Y. (January, 1970). P. 38-51, c.46
[9] Лосев А.Ф. Знак. Символ. Миф. М.: МГУ, 1982, 480 с., с.141
[10] Там же с.188

müəyyənləşdirirdi[11]. Dostoyevski yaradıcılığının bilicisi olan Baxtin ədibin bədii simvolikanın çox işləndiyi əsərlərini göstərirdi. Onun böyük əhəmiyyət verdiyi kateqoriyalardan biri də "xronotop" idi ki, bunu da o, işarə və simvollarla tənləşdirirdi. Belə ki, əsas simvollar arasında o "məkan" və "zaman"ı nişan verirdi[12].

Bununla bərabər Losev və Baxtinin konsepsiyalarında bəzi oxşar cizgiləri də tapmaq mümkün idi. Hər ikisi XX əsrin birinci yarısında bədii simvolizmin bazasını təşkil edən kreativ linqivistikanın nailiyyətlərinə istinad edirdilər. Alimlər belə bir fikirdə də həmrəy idilər ki, simvollar mənanın anlaşılmasını ayrı-ayrı mühakimə aktlarına parçalayır, nəticədə yeni, çox halda oxucu üçün gözlənilməz olan mənalar yaranırdı.

Beləliklə, simvolun öyrənilməsi, onu ədəbiyyatşünaslığın əsas kateqoriyaları sırasına aid etmək hələ lap qədimlərdə yaranmışdı və hər bir yeni dönəmdə yeni kəşflərlə zənginləşirdi. Poetika kateqoriyası kimi simvolun öyrənilməsini nəzəriyyəçilər və bununla əyani məşğul olan alimlər daha da zənginləşdirdilər.

**Birinci fəslin "Simvolizmin nəzəriyyəsi və praktikası" adlı ikinci paraqrafında** bir ədəbi cərəyan kimi XIX əsrin sonu, XX əsrin əvvəllərində Fransada meydana gəlmiş simvolizmin formalaşması tarixi və prinsipləri nəzərdən keçirilir. XX əsrdə ayrılıqda götürülmüş hər bir ölkədə simvolizm milli özünəməxsus şəkildə "yenidən doğulurdu". Bir çox Avropa ölkəsində simvolizmin əsasında idealizm dayansa da, əsas olaraq Platon və Hegelin baxışlarına deyil, daha çox Berqson, Nitşe və Şopenhauerin nəzər nöqtələrinə müraciət olunurdu.

Yeni ədəbi məktəbin "Manifest"i fransız şairi Jan Moreas tərəfindən yaradılmışdı[13]. Orada simvolizmin bir sıra norma və

---

[11] Бахтин М.М. Автор и его герой в эстетической деятельности. М.: Наука, 1976, 162 с

[12] Бахтин М.М. Формы времени и хронотопа в романе. Очерки по исторической поэтике // Бахтин М. М. Литературно-критические статьи. М.: Художественная литература, 1986, с. 120-290 , с.121-122

[13] Мореас Жан. Манифест символизма. Режим доступа: http://20v-euro-lit.niv.ru/20v-euro-lit/lukov-sovremennaya-francuzskaya-literatura/moreas-zhan.htm

prinsiplərinin klassifikasiyası verilmişdi və bunların əksərində simvolik obrazlılığın digər meyarlarla münasibətdə üstünlüyü təsdiq edilirdi, yəni yalnız simvol vasitəsi ilə dünya və gerçəkliyin "mistik sirlərini" açmaq olar. Moreasın xidməti bu idi ki, dünya nəzəri fikrində ilk dəfə olaraq məhz o, bədii əsərdə simvolun (yaxud onun düşüncəsinə görə işarənin) estetik kateqoriyasını obraz məvhumundan ayırırdı, hesab edirdi ki, simvol təkcə bədii obrazın çərçivəsindən çıxıb çox uzaqlara gedir. J.Moreas simvolun əlamətlərini işlənmə xarakterinə görə və özünün əsas təyinatını nəzərə alaraq dərəcələrdə birləşdirirdi, bununla da bədii simvolikanın ilk tipologiyasını yaratmış olurdu.

Bir sıra müasir tədqiqatçılar belə bir fikri bölüşürlər ki, simvolizmin XX əsrin əvvəllərində rus ədəbiyyatında yaranması və inkişafına Qərbin estetik prinsipləri, o cümlədən Şərqin zəngin mədəniyyəti, habelə İslam dininin əxlaqi ehkamları əsaslı şəkildə təsir göstərmişdi. "Gümüş əsr" dövrünün rus simvolizmi də öz növbəsində öznəxas fərqləndirici xüsusiyyətlərə malik idi. Əsas etibarı ilə bu onun "Yaşlı simvolistlərə" (V.Y.Bryusov, N.M.Minskiy, Z.İ,Qippius, F.K.Soloqub, D.S. Merejkovski və başqaları) və "Gənc simvolistlərə" (A.Blok, A.Belıy, Ellis və bir sıra digərləri) bölgüsündə özünü göstərirdi.

1894-cü ildə Bryusovun şeir və poemalardan ibarət "Rus simvolistləri" (tənqidçi-ədəbiyyatşünas A.Miropolski ilə birlikdə) ilk məcmuəsi işıq üzü gördü. Bu məcmuədə rus simvolizminin proqram prinsipləri şərh edilirdi. Burada simvolist istiqamətə konkret tarixi qiymət verilirdi. Milli çalarlı simvolizmin əsasında fəlsəfi özül dayanırdı. Y.V.Babiçevin qeyd etdiyi kimi, bütün rus simvolistlərinin estetik kredosu "*şair, yaxud yazıçının qəlbinin gizlinlərini, onun təkrarsız məzmununu açmaq idi*"[14].

Bryusov kimi, N.M.Minski də simvolizmin ilk qaranquşlarından idi, bir şair kimi o metaforik dünyaduyumuna malik idi. Onun şeirlərində, xüsusən son dövr yaradıcılığında poetik ideal "işıq", "günəş", "günəşin doğması" kimi metaforaların köməyi

[14] Бабичева Ю.В. Парнас «Серебряного века». Вологда: Вологодское книжное издательство, 1991, 201 с. , с.75

ilə təcəssüm edilirdi və o, öz yaradıcılığında Bibliya və folklor mətnlərindəki obrazlılıqdan geniş istifadə edirdi. Minski də daxil olmaqla simvolistlərin üslubu üçün belə bir cəhət səciyyəvi idi ki, onların əsərlərində bir qayda olaraq gərgin ictimai-siyasi mübarizəyə rast gəlinmir, burada inqilab məsələlərindən yan keçmək dərhal.müşahidə olunur. Xüsusən bu planda Minskinin həcmcə çox böyük olan "Aqasfer" silsiləsi maraqlıdır.

"Yaşlı simvolistlər" nəslinin görkəmli nümayəndələrindən biri F.Soloqub idi[15]. Onun "Yaranan əfasənə" romanı rus simvolitlərinin estetik proqramını ən mükəmməl şəkildə əks etdirir. Burada oxucunu qotik roman ənənəsinə doğru yönəldən, simvolizm üçün səciyyəvi olan reallıqla fantastikanın birləşməsi anlamında çox sayda üsullar mövcuddur. Soloqub lirik şeirlərində simvolika arsenalından geniş şəkildə istifadə edir, o cümlədən şairlərə öz əsrələrində "gözəl simvolist formalar" yaratmağı tövsiyə edirdi.

"Yaşlı simvolistlər" arasında D.S.Merejkovskinin yaradıcılığı xüsusi diqqətə layiqdir. Onun simvolizmlə bağlı estetik prinsiplərinin inkişafına V.Bryusovun proqram yazıları güclü təsir etmişdi. Tənqidçi-ədəbiyyatşünas Xanzen-Levi "Rus simvolizmi" monoqrafiyasında simvolizmin V.Merejkovskinin yaradıcılığında oynadığı önəmli rolu qeyd edirdi [16] . Merejkovskinin arxiv materiallarını mütaliə edən Q.Brandes onun adından yazırdı: "*O özünü dini və ədəbi simvolist hesab edirdi, bu halda o mütləq şəkildə qeyd edirdi ki, "simvolist" sözünün mənasının əsasında ədəbiyyatla dini birləşdirmək adına şəxsi cəhdləri*" dayanırdı"[17].

Merejkovski üçün simvol vahid silsilədə elə bir mühüm aralıq həlqəsi idi ki, onun vasitəsi ilə tarixi fəlsəfə ilə birləşdirmək, fəlsəfi ideyaları bədii mətnlərə tətbiq etmək mümkün idi. Ona

---

[15] Сологуб Ф.К. Демоны поэтов // Сологуб Ф. Творимая легенда. В 2-х тт. Т. 2. М.: Просвещение, 1991, 301 с.;Сологуб Ф.К. Мечта Дон-Кихота (Айседора Дункан) // Сологуб Ф. Собрание сочинений в 14-ти тт. Т. 10. СПб, 1914, 294 с.; Сологуб Ф.К. Собрание сочинений в трёх томах. Т.I. М.: Художественная литература, 1987, 350 с.

[16] Ханзен-Леви А. Русский символизм. Система поэтических мотивов. Санкт-Петербург: СПб, 1999, 257 с., с.9

[17] Брандес Г. Собрание сочинений в двух томах. Т.1. Санкт-Петербург: СПБ, 1913, 422 с., с.313

keçmişi indiki zamanla birləşdirməyə imkan verən, gələcəyin perspektivlərini göstərən ən müxtəlif simvolları öz ölkəsinin mədəniyyət və ədəbiyyat tarixinə tətbiq edirdi. Merejkovskinin nəzəri mühakimələri ona simvolizmin yaranmasının səbəblərini əsaslandırmağa, simvolun təbiətini göstərməyə kömək edirdi.

1892-ci ildə Merejkovski "Simvollar" adı ilə şeilər silsiləsini çap etdirdi. Onun əsərlərinin əksərinə belə bir ideya nüfuz etmişdi ki, bu, gündəlik həyatın faciəsidir. Burada ən müxtəlif mənalara malik simvollardan istifadə edilmişdi. Səciyyəvidir ki, bu simvollar real gerçəklikdən ayrılıb qopardılmamışdı. Merejkovski yazırdı: "*Yeni incəsənətdə çox mühüm bir element iştirak edir: bu, simvol, mistika və bədii həssaslıqdır*"[18]. Onun sözləri simvolizmin yeni proqramının qayəsi kimi səslənirdi: "*Yalnız İsa Məsih gəlişiylə gələn ədəbsizi ram edə bilər*"[19].

Məlumdur ki, A.Blok bütün yaradıcılığı boyu simvolizmə sadiq qalmışdır. Bu fikir Z.Q.Mins tərəfindən "Blok yaradıcılığında simvollar" məqaləsində qeyd edilmişdir[20], D.E.Maksimov təsdiq edirdi ki, şairin həyat fəlsəfəsi mahiyyətcə simvolik təfəkkür çərçivəində mövcud idi[21].

A.Blokun lirik mətnlərində bir sıra simvol və assosiasiyalar haqqında N.Y. Qryakalova[22], M.B. Bezrodnıy[23], P.E.Lençik[24] və başqaları ətraflı bəhs etmişlər.

---

[18] Мережковский Д.С. Грядущий хам. М.: Искусство, 1991, 222 с., с. 124
[19] Там же
[20] Минц З.Г. Символ у Блока // В мире Блока. М.: Художественная литература, 1981, 249 с
[21] Максимов Д.Е. Идея пути в поэтическом сознании Ал. Блока // Блоковский сборник № 2. Тарту, 1972, с. 25-121
[22] Грякалова Н.Ю. О фольклорных источниках поэтической образности Блока // Александр Блок. Исследования и материалы. Л.: Просвещение, 1987, 274 с., с. 59-60
[23] Безродный М.В. Лирическая драма А.А. Блока «Незнакомка» (Проблемы текстологии, генезиса, поэтики). Автореф.: дисс…. канд. филол. наук. Тарту, ТГУ, 1990, 16 с. ;Безродный М.В. О символике драмы «Незнакомка» // Тезисы докладов по гуманитарным и естественным наукам СНО. Русская литература. Тарту, 1986, с. 45-48; Безродный М.В. Образ камеи у Блока // Александр Блок. Исследования и материалы. Л.: Просвещение, 1987, с. 165-166

Metodoloji xarakterə malik olan birinci fəsildə alimlərin bədii simvolika haqqında konsepsiyalarının təhlilinə, bu problemin öyrənilmə çərçivəsini genişləndirə bilmiş, simvolizm cərəyanın proqramını təşkil edən mühüm estetik prinsiplərin formalaşması prosesini zənginləşdirmiş müxtəlif tədqiqatçıların əsərlərində simvol nəzəriyyəsinə diqqət yetirilmişdir. Bu fəsildə dissertasiyanın sonrakı fəsillərində konkret müasir nəsr əsərlərinin təhlil edilməsi üçün nəzəri baza hazırlanmışdır.

*Bu fəsildə əldə edilən elmi nəticələr müəllifin aşağıdakı məqalələrində əksini tapıb*[25].

**"Müasir ədəbi yaradıcılıqda bədii simvolikanın tipologiyası və funksiyaları" adlı ikinci fəsil** dörd paraqrafdan ibarətdir. "**Simvol və ən müasir rus ədəbiyyatında onun çox funksiyalı rolu**" adlı birinci paraqrafda araşdırılan mövzu XX əsrin sonu – XXI əsrin əvvəllərində rus ədəbiyyatı materialları əsasında nəzərdən keçirilir. Aparılan təhlillər belə bir fikri səsləndirməyə imkan verir ki, ədəbiyyatşünaslıqda hələ də E.Kassirer və onunla eyni fikirdə olan alimlərin işarə və simvol anlayışları arasında fərq qoyulmaması ilə bağlı fikirləri təkzib edilir. Alimlər göstərirlər ki, XX əsrin sonu – XXI əsrin əvvəllərində rus ədəbiyyatında simvol anlayışı işarə ilə müqayisədə kifayət qədər genişdir, onlar hətta ən

---

[24] Ленчик П.Е. Символический строй драмы А. Блока «Незнакомка // Творчество А. Блока и русская литература 20 века. Тезисы I всесоюзной (III) конференции. Тарту, 1975, с. 19-31, с. 24

[25] Алиева С. Г. О понятии «символ» как универсальной эстетической категории // Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika elmi konfransının materialları (2 cilddə), II cild, – Bakı: Mütərcim, – 19-20 dekabr, – 2013, – s. 140-142.; Понимание символа в системе эстетических взглядов Д.С. Мережковского // – Баку: Актуальные проблемы изучения гуманитарных наук. Межвузовский сборник научных статей, – Мутарджим, – 2017, – с. 183-187.; Эстетические принципы символизма // – Баку: Ученые вести, Азербайджанский университет языков, 2017. – Том II, Мутарджим, – с. 193-197.; Символы и их значение в период античности // – Bakı: Filologiya məsələləri, Elm və təhsil, Azərbaycan Milli Elmlər Akademiyası M.Fizuli adına Əlyazmalar İnstitutu, – 2019. №6, – s. 305-311.; Сакральное значение символа «оружие» в эпоху Средневековья // 1st International Conference: Modern Information, Measururement and Control Systems: Problems and Perspectives (MIMCS 2019), – Baku: – 01-02 July, – 2019, – p. 82-83

yeni rus ədəbiyyatında simvolikanın rolunu və simvoldan bədii mətnlərdə istifadənin geniş spektrini xüsusi olaraq nəzərə çarpdırırlar. Qeyd edilir ki, işarədən fərqli olaraq bədii əsərin strukturunda ən vacib komponent sayılan simvol onun bətnindəki ən dərin mənalara nüfuz etməyə, müəllif ideyasını açıqlamağa imkan verir[26].

Ən müasir rus nəsrində, xüsusən postmodernist ədəbiyyatda simvolika sakral məna qazanır. Bu belə bir faktla bağlıdır ki, əsas etibarı ilə postmodernist norma və qaydalarına sadiq qalan yazıçılar tərəfindən funksional cəhətdən işlədilən simvolun strukturunda əşya obrazları onların dərin mənalarını nişan alır. Ən yeni dövrün bədii mətnlərində Blok, Belıy, Qippius və Gümüş Dövrün digər nümayəndələrinin əsərlərindən fərqli olaraq, simvolu şərh etmək çox çətindir. İ.Çibizovun doğru olaraq qeyd etdiyi kimi, "*XXI əsr istedadlı rus yazıçılarının bir sıra əsərlərində simvolları sözlərlə ifadə etmək çərindir, bəzən də demək olar, mümkünsüzdür, daha doğrusu bütövlükdə və ayrılıqda simvolikanı ancaq hiss etmək olar*"[27].

Müasir rus yazıçılarının əsərlərindəki obraz-simvollar tez-tez oxuculara bütünlüklə tanış olan reminisensiya materialı əsasında yaradılır, yazıçılar vaxtaşırı olaraq simvolika sayəsində parafraza müraciət edir, bu və ya digər klassik süjetin remeykini yaradırlar. Məsələn, postmodernist yazıçı V.Sorokin Puşkinin "Çovğun" əsərinin simvolik adından eyni adlı əsərində istifadə edir. Bu əsərdə eyni tipli simvolika yaradılır, hətta Puşkinin əsərindəki üslub və janr prinsiplərindən istifadə edilir. Rus klassikasının postmodernist yazıçınnın povestinin başlığında təkrarlann ilkin mətn məhz yeni mədəniyyət məkanına daxil olan simvol kimi təqdim edilir. Ancaq bu məkan artıq fərqlidir, Puşkinə aid deyildir. V.Toporov bunu

---

[26] История эстетики. Памятники мировой эстетической мысли: В 5 т. Т. 1. С. 506–514. Режим доступа: http://www.psylib.ukrweb.net/books/_pikodel.htm
[27] Цибизова И.М. Философская символика в современной детской литературе. Часть 1 // Человек: образ и сущность. Гуманитарные аспекты. М., 2007, № 1-2(28-29), с. 69-80, с. 69

mədəni, yaxud daha dəqiq desək, kulturoloji “rezonans” hadisəsi adlandırmışdır[28].

V.Sorokindən başqa, milli klassikanı büsbütün dəyişdirməkdə metamorfozalara meyl A.Bitov, S.Qandlevskiy, D.Priqov, V. Yerofeyev, A.Kim, E.Limonov, V.Makanin, Z.Prilepin, L. Petruşevskiy, V.Tokarev və ən yeni nəsrin bir sıra digər parlaq nümayəndələrinə də xasdır. Bununla belə, bu dövrün bir qisim yazıçılarının əsərlərində simvoika məhdud şəkildə ümumi kontekstə nüfuz edir və çox zəhmət tələb edən açımının əsərin mahiyyətini anlmaqda böyük əhəmiyyətə malik olduğu açar-formula çevrilir. Bizim fikrimizcə, bu tipli yazıçılara V.Pelevini, T.Tolstaya və L. Uliskayanı nümunə gətirmək olar. Onların əsərlərindəki obraz-simvollar yalnız onların sisteminə xas şəkildə ərsəyə gəlir.

**İkinci fəslin “V.Pelevinin yaradıcılığının aparıcı başlanğıcı kimi simvolika və postmodern eklektika”** adlı ikinci paraqrafında V.Pelevin yaradıcılığının materialı əsasında ən yeni rus nəsrində işarə fiquru olan simvolikadan istifadə təhlilə çəkilir. Onun əsərlərinin maksimum dərəcədə ən mümkün və müxtəlif simvolik obrazlarla zəngin olması seçilən mövzu baxımından nasirin yardıcılığını maraqlı edir. Bu məqam bir sıra tədqiqatşçılar tərəfindən qeydə alınmışdır. Belə ki, N. Aleksandrov qeyd edir ki, Pelevin “*kifayət qədər fəal şəkildə və məhdud çərçivədə simvolikadan, dünya mədəniyyətinin ənənələrindən, avanqard incəsənətin ənənələrindən istifadə edir*”[29].

Tənqiddə böyük rezonans doğurmuş “Çapayev və Boşluq” romanıda qeyri-adi semantik məzmuna malik çox sayda simvollar mövcuddur. Bu romanda, elə Pelevinin bir sıra digər əsərlərində də “simvolik karkas” onun yaradıcılığındakı dərkedilməzlik, gözlənilməz və məntiqlə heç cürə izah olunmayan hadisələrlə zəngin sonsuz dünyada qarma-qarışıqlıq, çoxölçülük kimi spesifik xüsusiyyətləri və bir zaman çərəyindən digərinə keçidləri müşahidə etmək mümkündür. Və bütün bunlar simvolikadan faydalanmaqla

---

[28] Топоров В.Н. Славянские языковые моделирующие семиотические системы. М.: Наука, 1965, 246 с., с.109

[29] Александров А. Новая эклектика // Литературное обозрение, 1997, № 3, с. 66-75, с. 71-72

baş verir. Romanda təkcə adlar deyil, təxəllüs və ləqəblər də, eləcə də maddi predmetlər də simvolik xassəyə malikdir. Məsələn, "*öz ardınca anlaşılmaz və qaranlıq keçmişi sürüyən qatar*" obraz-simvolu nümaunə gətirmək olar[30]. Bu simvol Pelevinin "Sarı ox" romanında rastlanır; romanda hadisələr dağılmış körpüyə tərəf gedən qatarda baş verir. Bu simvoldan eyni zamanda Saşa Sokolov zamanda qeyri-adi səfəri təsvir edən "Axmaqlar məktəbi" əsərində istifadə edir.

L.Solovyova yazır ki, Pelevin keçmiş tarixlə, ədəbiyyat və onun nümayəndələri ilə bağlı müxtəlif mifləri yenidən "simvolik mənalandırmağa" məruz qoyur, onları necə deyərlər "taxt-tacdan məhrum edir"[31]. Bunlar həm klassik ədəbiyyat nümayəndələri, həm də vətəndaş müharibəsinin "qəhrəmanlarıdır". Bu mənada "Generation P" romanı səciyyəvidir. Burada baş qəhrəmanın adı simvolikdir – "Vasiliy Aksiyonov" və "Vladimir Lenin" sözlərindən düzəldilmiş, ironik şatmp kimi səslənən Vavilen Tatarskiy.

Bu romanın qəhrəmanının yazdığı əsər da bir sıra tarixi reminisensiya, simvol və metaforalardan təşkil edilib. "*Babil qülləsi yüksəldi və dağıdlı, Nil çayı daşdı, Roma yandı, çılğın hunlar çöl boyunca çapıb getdilər*" və sair və ilaxır[32]. Pelevin şüurlu şəkildə oxucunun yaddaşını birbaşa arxetipik və əfsanəvi Babil qülləsi ilə bağlı olan xaos dünyası ilə yükləyir. Simvolika bu romana elə onomastika səviyyəsində sirayət edir. Baş qəhrəman Vavilon Tatarskinin məşğul olduğu Misir allahı İştar simvoluna müraciət edərək Pelevin təkcə mifoloji yox, həm də dini simvolikadan istifadə edir. Qəhrəmanın dillərin Vavilonvari qarışığı ilə bağlı nitqinin qəribə disfunksiyası dərhal simvolik assosiasiya yaradır. Bütün bunlar vaxtaşırı olaraq Pelevin nəsrində simvol-obrazların açımında çətinlik və mürəkkəblik yaradır.

Pelevin mifoloji və dini simvolikanın köməyi ilə qəhrəmanının obrazlı təfəkkürünə ən müxtəlif zaman qatlarını

---

30 Пелевин В.О. Чапаев и Пустота. Роман. М.: Эксмо, 2012, 509 с. с.211

31 Соловьева Л.В. Русская проза рубежа тысячелетий: Учебное пособие. Елабуга: Издательство ЕГПУ, 2006, 179 с.

32 Пелевин В.О. Generation «П». М.: Вагриус, 2004, 235 с. с.30-31

yerləşdirir və bu zaman hadisələrin gedişini müasir zəminlə əlaqələndirir. Bu isə Pelevinin bütün qəhrəmanlarına real və virtual dünyanın sərhəddində müvazinəti saxlamaq imkanı verir. Belə ki, qədim fəhlələrin qalxdıqları daş pillə kimi özünün ilkin mənasını qeyb etmiş Babil qülləsi virtual məkanda mövcud olan kompüter nərdivanına çevrilir.

Artıq ötüb keçmiş sovet epoxasının pioner düşərgəsi, "Raket", "Kosmos" kinoteatrı kimi kulturoloji simvolların mənalandırıldığı "Omon Ra" povestində də simvolika çox mənalıdır. "Rahib və Altıbarmaq" hekayəsində buddist dünyagörüşünün "dzen"kodlaşdırılmış simvolu ilə üzləşirik. "Hökmdar" hekayəsində canavar cildində təqdim edilmiş zoomorf simvolu üzərinə vurğu salınır. Heyvanların müxtəlif təsadüflərdə insana və tərsinə çevrilməsinin simvollaşdırıldığı analoji situasiyanı biz "Heyvanların həyatı" əsərində müşahidə edirik. "İvan Kulbaxanov" hekayəsi isə yuxu simvolu əsasında qurulmuşdur. V.Pelevinin əsərlərində simvollardan istifadənin bütün estetik forma və üsullarından hər biri süjetyaradıcı rola malikdir.

**İklnci fəslin "T.Tolstaya estetikasında dairə simvolikasının metamorfozları"** adlı **üçüncü paraqrafında,** təhlil T.Tolstayanın povest və romanlarının materialı əsasında aparılır. Bu yazıçının yaradıcılığı üçün insanlar arasında ünsiyyətin mürəkkəbliyini göstərmək çox səciyyəvidir ki, bu da nağıl (imkansız və qeyri-real) gerçəkliyinin qədim həqiqətlərlə toqquşmasından hasil olan konflikt vasitəsi ilə həyata keçir. Qaliblərin və məğlubların olmadığı bu tip konfliktlər T.Tolstayanın nəsrində simvolik dairə formasını alır.

Belə bir çıxılmaz, dalana dirənmiş vəziyyətlərlə onun məşhur "Kıs" romanında rastlaşırıq. Dünyanın üstün mifoloji modeli burada Puşkinin məzlum Lukomoruna çevrilir, əsas simvol-obraz isə haçan və harada olması unudulmuş *Partlayışdır.* XIX əsər klassik ədəbiyyatının xaotik dünyasını ironik şəkildə paradiya edən T.Tolstaya intertekstual müstəvidə keçmiş mədəni epoxanın bəzi adlarını saxlayır. "Kıs" romanında Puşkin Lukomorunun nağıl dünyasında hər qarışda rastlanan bütün simvolik elementlər iştirak edir. Bu isə öz növbəsində demək olar bütün postmodernistlərə xas

olan “klassikayla oyun”dur. Tolstayanın simvolikasının özəlliyi ondadır ki, burada simvol dairəvi hərəkət formasını alır.

Tolstaya qələndərliyi tam şüurlu şəkildə ironiya, hoqqabazlıq və karnaval dünya duyumu ilə bir sırada qoyur. Tolstayanın yaradıcılığında qələndərlik əsas məqsədi ənənəvi ideal və dəyərləri gülüş hədəfinə çevrimək olan istehza estetikasına transformasiya olunur. “Provoslavlıq və postmodernizm” adlı əsərində T.Qorçiyevanın qeyd etdiyi kimi, “*Qələndərlik müqəddəsliyin ən müasir postmodernist formasıdır*”[33].

Tolstoyanın “Kıs” romanında biz eyni zamanda simvolik olaraq başqa şəklə düşmüş milli folklor elementlərini müşahidə edirik. Bu barədə bir çox tədqiqatçılar yazmışlar (O.Boqdanova, N.Leqderman, V.Kuritsın, M.Lipoveskiy və sair). Təəssüf ki, “Partlayış” obraz- simvoluna yetərincə diqqət ayrılmayıb. Halbuki bu, yəni əsərin ən əsaslı məqamı roman işində romanın əsas hadisələri üçün ayrılma nöqtəsi rolunu oynayır.

T.Tolstayanın mətnlərinin intertekstual müstəvisində bir neçə mədəni kodu müşahidə etmək mümkündür, onlardan biri “Kıs” romanında istifadə edilən rus əlifbası kodudur. Romanın bütün fəsillərində ənənəvi olmayan rəqəm simvolikası mövcuddur, hərflər isə qıdim slavyan əlifbası biçimində təqdim edilir (“az”, “buki”, “vedi”). Hərflə işarələnmiş kod insanın öz hərəkətində dairəni qət edən təfəkkür və düşüncə pillələrini simvolik şəkildə əks etdirir.

T.Tolstayanın “Əziz Şura” hekayəsində “dairə” simvolikası başqa bir səciyyəyə malikdir. Şuroçka obrazı “kurort romanından” sonra heç bir təkamül keçirmir. Qəhrəmanın qəlbində harmoniyanın olmaması və bundan sonrakı hadisə elə onun içində olduğu dairə səciyyəsidir. Çexovun “Aramsız qadın” obrazı ilə özünü zahiri səviyyədə göstərən analogiya ortadadır. Əgər “Kıs” romanında “dairə” simvolikası tarixən yalançı hadisə kimi işarələnibsə, “Əziz Şura” hekayəsində eşq münasibətlərinin qapalılığını göstərmək əsas şərtdir.

Qeyd etmək lazımdır ki, postmodernist mətnlərə xas olan pozitiv və ya ifşaedici konsepsiyaların olmaması bütün ətraf aləmə

---

[33] Горичева Т. Православие и постмодернизм. Л.: ЛГУ, 2001, 143 с. , с.57

laqeydliyi yanlış izah edir. Tolstaya və "fərqli", "başqa", "alternativ" ədəbiyyatın digər nümayəndələri həm pozitiv, həm də neqativ təsvirlərin təqdimində xəsislik etmirlər.

**İkinci fəslin "L.Uliskayanın yaradıcılığında simvol-obrazların mifoloji təbiəti" adlı dördüncü paraqrafında** ən yeni rus nəsrinin daha bir nümayəndəsinin əsərlərində simvollardan istifadənin spesifikasının analizi verilmişdir. Əksər tədqiqatçılar hedab edirlər ki, L.Uliskayanın yradıcılığının əsas metodu realist metoddur. Onun əsərlərindəki simvolika isə yazıçının ideya və fikirlərinin əyaniləşdiyi özünəməxsus üstqurumdur. Digər bədii üsullarla birgə işlədilən simvol-obrazların yardımı ilə yazıçı məhz özünə məxsus unikal bədii dünyanı yaradır.

Ən müxtəlif simvollar L.Uliskayının əsərlərinin süjetinə nüfuz edir. Belə ki, "Kazus Kukoçko" romanında və bir sıra digər əsərlərində ("Soneçka", "Medeya və uşaqları", "Qəlbən sizin Şurik") müşahidə edirik ki, yazıçı təbiət hadisələrinə onlara müvafiq simvolik cizgiləri aşılamaqla canlı varlıqlar kimi yanaşır. Tənqidçi L. Kuklina qeyd edib ki, təbiət L. Uliskaya üçün simvol kimi qəhrəmanın xarakteri konseptini müəyyənləşdirmək üçün bir növ meydan rolunu oynayır, tənqidçinin rəyinə görə yazıçı öz qəhrəmanlarına hansısa "bioloji obyektlər" qismində yanaşır[34].

Uliskayanın əsərlərinin analizi təsdiq edir ki, o, mifologiya sahəsində alimlərin apardıqları tədqiqatlara əsaslanaraq, öz əsərləri üçün obraz-simvolları seçdiyi xüsusi sistemini formalaşdırıb şüurlu şəkildə vurğuların yerini dəyişdirir. Hə şeydən qabaq, hadisələr bir silsilə üzrə cərəyan edir: təhkiyədən, nəql etmədən düşüncəyə, fantastikadan gerçəkliyə, alleqoriyadan simvola doğru. Bunu da qeyd etmək mühümdür: Uliskaya miflərə müraciət edəndə onları həmişə və tam olaraq simvol-obrazlara tən tutur.

Uliskaya konkret mifləri obraz-simvollara çevirərək onları aktuallaşdıra bilir. Bir tərəfdən, onun əsərlərinin mətnləri qismən mifə bənzəyir. Digər tərəfdən isə məişət simvolları mif rolunda çıxış edir. Əbəs deyil ki, bəzi tənqidçilər onu "məişət realizminin" nümayəndəsi hesab edirlər. L.Uliskaya simvolik müstəvidə oxucu

---

[34] Куклин Л. Казус Улицкой // Нева, 2003, № 7, с. 177-184

ilə T.Tolstayanın oynadığı oynu oynayır. Mifologiya və simvolika xəlitəsi Lyudmila Uliskayanın əsərlərinin poetikasının mühüm və aktual laylarından birini təşkil edir. T.Kazarina vaxtilə bu barədə yazırdı: "*Simvol və mifologemlərdən fəal şəkildə və daim istifadə etməsi ilə birgə teatrallıq, rituallıq və improvzasiyanı Lyudmila Uliskaya nəsrinin mərkəzi meyarları adlandırmaq olar*"[35].

Öz növbəsində M.A.Boloqova simvolik başlanğıcın Uliskaya poetikası üçün səciyyəvi olan və "Medeya və uşaqları", "Şən dəfnlər" və "Soneçka" kimi əsələrinin problematikasında əksini tapan parodiyaya çevrilməsinə diqqət yetirir. Tənqidçi qeyd edir: "*Uliskayanın üstünlük verdiyi struktur əvvəla simvolikdir, ikincisi mifopeotik səciyyəyə malikdir, nəhayət, üçüncüsü dairəvidir*"[36].

Lyudmila Uliskaya əsərlərinin problematika və poetikasında simvol və mifologemlərdən istifadənin hər şeydən qabaq "Medeya və uşaqları" əsərinin materialı əsasında analizi haqqında S. Timina bəhs etmişdir[37]. O, L.Uliskayanın yaradıcılığında əbədilik və varlıq, əzəmət və sadəlik, disharmoniya və harmoniya, xaos və kosmos kimi simvolların bir-birinin yanında olmasına işarə edərək simvolik "binar oppozisiyaları" ayırır. L.Uliskayanın yaradıcılığında bu simvollar roman-mifin dövrilik, vaxtaşırılıq və zamanın mərhələliyi kimi səciyyəvi xüsusiyyətlərinə transformasiya etməyi bacarır.

Beləliklə, Pelevin, Tolstaya və Uliskayanın nəzərdən keçirdiyimiz, fərqli janr-üslub istiqamətlərini təmsil edən əsərlərində biz simvolikadan istifadəni müşahidə etdik. Onlardan hər biri özünəxas şəkildə obraz-simvolları öz əsərlərinə "daxil edir", onlardan dünyanın əks etdirilməsində əlavə, yaxud tamamlayıcı vasitə kimi istifadə edirlər.

---

[35] Казарина Т. Рецензия на сборник Л. Улицкой. «Русский феминистский журнал» 1996, № 4. Режим доступа: http://www.a-z.ru/women_cd1/html/preobrazh_4_1996_e.htm

[36] Бологова М.А. Рождение лирики из духа пародии. Л. Улицкая «Весёлые похороны», «Медея и её дети», «Сонечка» & «Казус Кукоцкого» // Пародия в русской литературе XX века. Барнаул: Изд-во АГУ, 2002, с.135-149, с.136.

[37] Тимина С.И. Современный литературный процесс (1990-е гг. – начало XXI в.) // Современная русская литература (1990-е гг. – начало XXI в.). М.-СПб.: ACADEMIA, 2005, 350 с.

*Dissertasiyanın bu fəslində əldə etdiyimiz elmi nəticələr müəllifin aşağıdakı nəşrlərində əksini tapıb*[38].

**Dissertasiyanın “Boris Akuninin yaradıcılığında bədii simvolika” adlı üçüncü fəsli** yaradıcılığı bu mövzunu araşdırmaq üçün zəngin material verən ən yeni ədəbiyyatın nümayəndələrindən birinin əsərlərindəki simvolikanın təhlilinə həsr edilib. Fəsil iki paraqrafdan ibarətdir. **Birinci paraqrafda (“Müasir rus nəsri kontekstində Boris Akuninin yaradıcılıq mərhələləri”)** ən yeni rus nəsrində özünəməxsus yeri olan yazıçının yaradıcılıq özəllikləri tədqiq edilir [39] . M.A.Çernyak Boris Akunini “*Qərb postmodernistlərinin texnikasından (ikiqat kodlaşdırma, simvolika, müxtəlif allüziyalar, sitatlar, intertekstuallıq, dünyanın mətn, yaxud xaos kimi təqdim edilməsi ideyası)* geniş istifadə edən ”yeni yazıçı” adlandırır[40].

B.Akuninin “layihə” adlandırdığı “Fandorin silsiləsi” özündə bir sıra əsərləri birləşdirir. Onların özəlliyi ondadır ki, bir tərəfdən onlar Avropa postmodernizmi, digər tərəfdən isə rus klassik nsəri ilə bağlıdır. Əksər ədəbiyyatşünaslar hesab edirlər ki, Akuninin romanları macəra povesti, sərgüzəşt romanı, həm də əlbəttə ki, detektiv kimi janrların xəlitəsidir.

Bununla bərabər, B.Akunin bir çox publisist, fəlsəfi işlərin, o cümlədən çox məşhur olan “Yazıçı və intihar”[41] əsərinin müəllifidir.

---

[38] Традиции и новаторство в использовании символики в художественной литературе // 9-th International Symposium. Tradition and contemporary literature. Vol II, – Tbilisi: – 23-25 september, – 2015, – p.306-316.; Мифологическая природа символов-образов в творчестве Л.Улицкой // – Горно-Алтайск: Мир науки, культуры, образования, Международный научный журнал, – 2020 . № 2(81), – с. 535-538.; Метаморфозы символики в творчестве Т.Толстой // – Москва: Инновационные подходы в современной науке: сб. ст. по материалам XCIX междунар. науч.-практ. конф., – 2021. № 15(99), – Интернаука, –с.30-33.

[39] Черняк М.А. Массовая литература XX века. М.:Флинта, 2007, 432 с.; Черняк М.А. Феномен массовой литературы XX века. СПб: Издательство РГПУ им. А.И. Герцена, 2005, 229 с.; Черняк М.А. Современная русская литература. Москва: Форум-Сага, 2010, 352 с.

[40] Русская проза конца XX века. Хрестоматия. Москва: Академия, 2005, 638 с, с. 175

[41] Чхартишвили Г. Писатель и самоубийство. Москва: Захаров, 2008, 463 с.

Bu əsərlərlə o, XX əsrin sonu, XXI əsrin əvvəllərində rus ədəbiyyatında gənclər arasında hökm sürən intihar simptomları kimi kəskin və qeyri-normal mövzunu ilk dəfə qaldıran yazıçılardan biridir. Monoqrafiya üzərində iş Fandorin haqqında romanlar silsiləsi ilə paralel olaraq gedirdi. Öz növbəsində intihar mövzusu da öz əksini yazçının bir sıra əsərlərində, o cümlədən "Ölüm məşuqəsi" romanında da tapmışdır.

Akunin intiharın elmi yanaşma tələb edən hüquqi aspektini, statistik qeydiyyat və quru protokolları bədii simvolika ilə uyğunlaşdıra bilmişdi. XIX əsr nümunəsində, ancaq həm də sözügedən problemin müasir vəziyyətini hədəf kimi seçərək yazıçı cəmiyyətin bu bəlasını "təmiz oyunun" simvolik şəkildə pozulması kimi təqdim edirdi. Akuninin fikrincə, yazıçının taleyi də simvolikdir. Söz ustasının taleyini o, yaradıcılıq prosesi ilə eyniləşdirir və bu prizmadan baxdıqda şəxsiyyətin kim tərəfindənsə yaradılması ilə bağlı fikiri ilə razılaşmağın çətinliyini vurğulayır. "*Sözün məlum mənasında insan yaradıcılığı təkcə simvolik deyil, həm də faciəvidir*"[42].

Bir yaradıcı şəxsiyyət kimi B.Akunin özünü nəqletmənin şüuraltında gizlənmiş dramatik və psixoloji layları vasitəsi ilə ifadə edir. Vaxtaşırı olaraq onlar qeyri-adi, bəzən də ekstremal situasiyalar səbəbindən, şəxsiyyətin tam şəkildə və ya qismən müasir cəmiyyətdən təcrid olunması nəticəsində yaradılır. Detektiv povest və romanların qəhrəmanları sanki irreal və real vəziyyətlərin sərhəddində yerləşən belə bir xüsusi işarəvi dünyada yaşayır və fəaliyyət göstərirlər. B.Akuninin bir sıra romanlarında biz reallığın özünü deyil, onunla bağlı "simvolik kadrları" müşahidə edirik. Onun romanlarının bədii dünyası isə artıq qələmə aldığı əsərlərin məharətlə paraodiya edilməsinə uyğun şəkildə yaradılır.

B.Akuninin romanlarına usta şəkildə qurulmuş süjet vasitəsi ilə gerçəkləşən belletrist təxəyyül əsasında mühüm tarixi hadisələrin təbii interpretasiyası xasdır. Tarixi "faktlar" özünəməxsus simvolik haşiyə qazanırlar. B.Akunin kifayət qədər ustalıqla tarixi hadisələrin dəqiqliyini sonsuz fantaziya ilə qovuşdura bilir. Bir tərəfdən, o,

---

[42] Там же с.67-68

oxucunu real tarixi fakt və şəxsiyyətlərin dairəsinə daxil etməyə çalışır. Digər tərəfdən isə, lazım olduğu dərəcədə müxtəlif işarə, əlamət, sakral yazılardan və bu tipli digər simvolik üsullardan istifadə edərək tarixi hadisələrin sərbəts şərh müstəvisində izah etməyin mümkünlüyünü nümayiş etdirir.

Akuninin üslubu müxtəlif üslubların bir-birinə qovuşub qarışması ilə səciyyələnir. Onun detektiv romanlarında posmodernist elementlərin bu və ya digər dərəcədə iştirakı sayəsində süjetlər çox vaxt oyun estetikası ilə əlaqələnir, eyni zamanda isə yazıçının həyatı bədii şəkildə əks etdirməsinin predmeti gözəllik və harmoniya idealı ilə bağlıdır. A.M. Rançin hesab edir ki, "*B.Akuninin roman oyunlarında tarixin özü sanki şahmat taxtasına dönür. Orada hansısa simvolik partiya oynanılır, Fandorin isə burada oyunçulardan birinin rolunu icra edir*"[43].

Oyunların mənbəyi çox müxtəlif və fərqli ola bilər. Bəzən bu, keçmiş əsrlərin rus ədəbiyyatından birbaşa iqtibas ola bilər. Məsələn, oxucunun fikrində Karamzinin "Bəbbəxt Liza" povestinin qəhrəmanlarının adları ilə assosiasiya edilən Erasta və Liza kimi qəhrəmanların adları kimi. Nasir təkcə klassik yazıçının verdiyi adlarla oyunla kifayətlənmir, bu povestin finalının poetikasından da istifadə edir. Bildiyimiz kimi, final faciəvidir. "Bədbəxt Liza" ərə getmədən ölür. Liza Evert-Kolokolseva nikah mərasiminin keçirildiyi gün banderolda güclü partlayış nəticəsində həyatını itirir.

"Bütün dünya teatrdır" romanında yazıçı bu faciəvi süjeti ənənəvi "xoşbəxt sonluğun" xeyrinə mənalandırır, bu yolla da oxucunun detektiv roman-serialda xoşbəxt sonluq gözləntisini təmin edir. Doörudur ki, bu artıq tamam başqa Lizadır, o, Eliza Altairskayanın "Noev Koçeq" teatrının aktrisası, primadonnasıdır. Öz növbəsində Erast Petroviç növbəti istintaqın ardınca qoşmağa hazır həmin cavan oğlan deyildir. Öz əsrində olmazın dərdləri dadmış 55 yaşlı kişi və 30 yaşlı aktrisa bir-birlərinə rast gəlir, bir daha ayrılmamağa söz verirlər. Beləliklə oyunun rakursu daim

---

[43] Ранчин А. Романы Б. Акунина и классическая традиция: повествование в четырех главах с предуведомлением, нелирическим отступлением и эпилогом // НЛО, 2004, № 64, с. 257-263, с.259

dəyişir. Vəziyyətdən asılı olaraq oyun gah dramatikləşir, gah da xoşbəxt çalarlar qazanır.

Boris Akuninin demək olar əyləncəli zəmində yaradılmış əsərləri elə başlanğıcı ilə oxucuda güclü maraq oyadır. Ağırlıq mərkəzi həmişə həqiqi yüksək mənəviyyat prinsiplərinin canlandığı problematikanın üzərinə düşür və klassik ədəbiyyatın ən yaxşı estetik dəyərlərinə qayıdışı nümayiş etdirir.

**Üçüncü fəslin "Simvolika və B.Akuninin müəllif ideyasının açılmasında onun rolu" adlı ikinci paraqrafı** yazıçının bu niyyət və planın açılmasında böyük rol oynayan əsərlərindəki simvolikanın özəlliklərinə həsr edilib. Bu yazıçının əsərlərində həmişə tapmağa çalışdığın, yazıçının reallığın əksində simvolik təxəyyülünün əlaməti sayılacaq hansısa "kod" olur.

U.Ekonun "Qızılgülün adı" romanını xatırladan "Dünyanın sonuna yaxın" adlı hekayəsində simvolika böyük, bəlkə də ən mühüm rolu oynayır. Nəticədə hekayədə təsvir edilmiş cinayətrin açılmasına gətirib çıxaracaq "simvolik kodu" tapmaq üçün oxucuya U.Ekonun romanı ilə bəzi süjet xətlərinin bənzərliyini "tapmaq" təklif edilir. Hər iki əsər üçün ümumi olan onların məkan-zaman sərhədləri, personajlar, qəhrəmanlar arasında xeyir və şərin təcəssümüi kimi nəticədə xeyirin şərə qalib gəldiyi simvolik təkbətək döyüşdür.

Şərin təmsilçiləri olan Xorxe və Kirilla köhnə və nadir kitablar arasında ömür sürən alimlərdir. Öyrənməli və üzü köçürülməli olan mətnlər simvolik sirlərlə doludur, onlar sözün hərfi mənasında adi şüur üçün əlçatmaz olan işarələrlə doludur. Sirləri çözən kriptoqrafiyanın köməyi ilə işarələr Akuninin fəlsəfi konsepsiyasının konturları cızılır – "dünya mətndir". Burada hər şey dərindən dərinə simvolikdir. Akuninə görə, burada işarələnməni axtarmaq əbəsdir, reallıq sərbəst şəkildə irreal məcraya axıb tökülür. Belə bir bədii üsula biz "Gümüş dövr" rus simvolist yazıçıların yaradıcılığında rast gəlmirik. Bu artıq klassik realizmlə Qərbi Avropa postmodernizminin qəribə simbiozu adlandırıla bilən sırf Akunin baxışıdır.

Müasir rus nəsrində simvolikanın mühüm rol oynadığı "dünya mətn kimi" deyimi (təkcə B.Akuninin yardıcılığında deyil-!) həmişə

incəsənətdə təcəssümün yeni üsullarını tələb edərək yenidən yaradılır. Bu dünya özünün ilkin xaos durumu ilə göz önünə gəlir və hansısa nüfuza və əvvəlki biliyə söykənməyən insan onu qurub yaradır. Dünyanın xaotikliyi onun tərkibinə daxil olan elementlərin nizamsızlığı ilə Akuninin "tacqoyma mərasimində" peyda olur.

Akuninin bu və ya digər romanında simvolika elə bir şəffaf səciyyə qazanır ki, o, ayrıca üsullarda deyil, bütün təhkiyə boyunca sezilir. Məsələn, "Ölüm məşuqəsi" romanında baş qəhrəmanları – yaradıcılığında ölüm, heçlik, mənəvi dəyər və ideallların xiffətinin çəkilməsinin yer aldığı dekadent şairlərdir, bu müstəvidə simvolikaya üstünlük verilir. Bəzən detal qismində simvol əvvəlcə sezilmir. Belə ki, "Leviafan"-da əsas yeri gizlədilmiş cəvahirat haqqında hind üslubunda naxış vurulmuş dəsmal tutur. Dəsmal burada şərin simvoludur, məhz onun ucbatından yeni-yeni qətllər baş verir. Bunu dayandırmaq üçün Fandorin "dəsmalı azadlığa buraxır".

Akuninin yaradıcılığında Fandorin və Pelagiya haqqında bir sıra romanlara nüfuz etmiş simvolik-mifoloji lay müşahidə edilir. Müntəzəm olaraq Bibliyadan gəlmə miflər simvollaşdırılır, məsələn, "Azazel" romanında "Günahdan təmizlənmə" simvolik mərasimindən bəhs edilir. Mifoloji varlıq kimi Azazel şübhəsiz ki, Kaini xatırladır. Ancaq Bibliyadan fərqli olaraq Akuninin romanında insanlığı yolundan azdıran, kişilərə döyüş sənətini, qadınlara isə dölü məhv etməyi öyrədən neqativ qəhrəmandır.

B.Akuninin əsərlərinin bir neçəsində maddi olmayan dünyanın əşyaları da ustalıqla simvollaşdırılır. Eyni adlı romanda Leviafanın kontekstual əhəmiyyəti müasir texnikanın nailiyyətlərinin komfortla qovuşduğu simvolik möcüzə - gəmidir, elmi-texniki inkişafın nəticəsidir. Açıq dənizdə gəminin nəhəng ölçüləri oxucuda Bibliyadakı balina assosiasiyasını yaradır. "Axillesin ölümü" romanında da Troya müharibəsinin şanlı qəhrəmanlarından biri haqqında yunan mifi ilə bağlı simvolik-mifoloji diskurs iştirak edir. "Ölüm məşuqəsi" romanında Homerin Odisseyi ilə müqayisə edilən Eras Fandorin obrazı da eyni simvolik zəmində təqdim edilir.

Burada eyni zamanda Allahın təzahürü də simvolik aspektdə veriib, bu isə onun haqqında məlum təsəvvür və bilikləri gözdən salan çox tərəfli həqiqətlə bağlıdır. İsanın çarmıxa çəkildiyi xaç elə onun günahsız həyatı kimi şübhələrin hədəfinə çevrilir. “Pelagiya və qırmızı xoruz” povestində də təxminən oxşar versiyanın şahidi oluruq. B.Akunin tarixi realiyaların təhrif forması kimi belə bir qeyri-adi simvolik üsuldan bilərəkdən istifadə edir. Bu, yazıçı üçün təsvir etdiyi mənzərənin həqiqiliyinə şəhadət vermək mənasında gizli ədəbi üsul sayıla bilər.

B.Akuninin əsərlərində dünyanın müəllif mənzərəsinin şifrələndiyi gizli mənalarla yüklənmiş mürəkkəb bir dünya yaradılır. Oxuculara isə növbəti filoloji tapmacaları bulmaq təklif edilir. Obrazlı şəkilə ifadə etməli olsaq simvolik əşyaların ətrafında yerləşən qəhrəmanlar romanda təhkiyə boyunca həqiqətə çatmaq və törədilən cinayətlərin üstünü açmaq üçün müvafiq işarələrə şərh verir, onları açmağa cəhd göstərirlər. İşarələrin açılması Akuninin romanlarında daim təkrarlanan sabit üsuldur. “Azazel” romanında bu, zərfin içindəki vərəqlərin açımıdır, “Statski müşavir” də isə anonim qeydlərin tapılmasıdır.

“Pelagiya” bacılarının macəraları silsiləsində simvolikadan istifadə də maraqlıdır. Baş qəhrəman aristokrat qadın maskası altında törədilən müxtəlif cinayətlərin araşdırılması ilə məşğul olan rahibədir (“Peleqaya və ağ buldoq”). Bu simvolik üsul öz başlanğıcını Avropa ədəbiyyatında hələ orta əsrlərdən etibarən işlədilən “pərdə-qadın” ifadəsindən götürüb.

B.Akuninin yapon tematikalı romanlarında da simvolik element parlaq ifadəsini tapıb. Xüsusən hadisələrin Yaponiyada cərəyan etdiyi əsərlərində (“Almaz cəng arabası”). Yapon mədəniyyətini dərindən bilən yazıçı üçün bu heç də çətinlik törətmirdi. Burada simvolika özünü Akunin tərəfindən milli yapon mərasimlərindən istifadədə bildirir. Belə ki, məsələn, Fandorin “qırğı uçuşu” (“Statskiy müşavir”) adını almış hiylədən istifadə edir ki, bu da “yaltaqlar ” üçün ustalığın ən yüksək dərəcəsi hesab edilirdi. B.Akunin yazdığı romanlarda şərq, konkret olaraq Yapon fəlsəfəsi və simvolikasından geniş şəkildə istifadə edərək onları

qabarıq şəkildə uyğunlaşdırır, bununla da təkcə intellektual kəsimə deyil, həm də kütləvi oxucuya müraciət edir.

B.Akuninin Bakı haqqında romanı "Qara şəhər" adlanır (*"Qara-qara şəhərdə, qapqara küçələrdə"*)[44]. Bu təkcə mararq doğuran başlanğıc deyil, eyni zamanda neftlə zəngin şəhərin simvoludur. Romanda Qərbdə azad yaşamaq xəyalını quran Şərq gözəli "Şamaxı Məlikəsi" peyda olur. Burada milli realiyaların mənalandırılması da müəllif tərəfindən Şərq-Qərb qarşıdurmasında simvolik zəmində təqdim edilir, belıə ki, Şərq koloriti və Azərbaycan neft işçilərinin mentaliteti başqa mədəniyyətlərin fəlsəfi və estetik kateqoriyaları ilə qəribə şəkildə qovuşur.

B.Akuninin demək olar bütün əsərlərinin süjet xətti simvolikadan, o cümlədən oxucunu klassikaya yönəldən sivmolikadan istifadənin çoxsaylı üsulları ilə zəngindir. Yazıçı qədim mərasimlərlə, simvolik allüziya və reminisesnisyalarla usta şəkildə davranır. Onun romanlarının məzmunu sirlərlə örtülüb, ancaq finalda duman seyrəlir və bayaqdan sirli görünənlər canlı reallığa çevrilir.

*Bu fəsildə əldə edilmiş nəticələr müəllifin aşağıdakı nəşrlərində əksini tapıb*[45].

Tədiqatın ümumi yekunlarını aşağıdakı qaydada ümumiləşdirmək mümkündür.

- "Simvol" kateqoriyasının öyrənilmə tarixi uzun bir dövrü əhatə edir, bu dövrdə hər bir yeni mərhələdki simvol nəzəriyyəsi yeni şərhlərlə zənginləşir.

---

[44] Акунин Б. Чёрный город. М.: Захаров, 2012, 243 с., с.5

[45] Борис Акунин: география художественного пространства // Doktorantların və gənc tədqiqatçıların XIX Respublika elmi konfransının materialları (2 cilddə), II cild, – Bakı: Mütərcim, – 7-8 aprel, – 2015, – s. 87-89.; Национальные реалии и их осмысление в произведениях Бориса Акунина // 8-th International Symposium . National literatures and the progess of cultural globalization. Vol II, – Tbilisi: – 24-25-26 september, – 2014, – p. 103-110.; Мифологические символы в произведениях Бориса Акунина // – Bakı: Elmi xəbərlər, Humanitar elmlər seriyası, Universitet «Western Caspian», 2018. №4, – с. 57-63.; Образ Эраста Фандорина в произведениях Бориса Акунина // – Bakı: Filologiya məsələləri, Elm və təhsil, Azərbaycan Milli Elmlər Akademiyası M.Fizuli adına Əlyazmalar İnstitutu, – 2019. №6, – s. 216-221.

- Bədii əsərin toxumasında simvollardan istifadə müəlliflə oxucunun əlaqəsini gücləndirir, hətta müəllifin oxucunun yaşadığı epoxadan fərqli dövrdə yaşamasından asılı olmayaraq onu hamı üçün əlçatan edir.

- Simvolistlərin simvolu konkret obrazla, yəni şərti obrazla əvəz etmək cəhdini ən fərqli metodlarla yazılmış əsərlərə bədiilik elementi kimi daxil olan simvolikadan ayırmaq lazımdır.

- Simvolika əsərin bədii toxumasına yeni təsvir çalarları gətirir, onun məzmununun assosiativliyinin genişlənməsinə təkan verir, mənaları gücləndirir və yazıçının yaradıcı niyyəti, formanın estetik baxımdan mükəmməliyini artırır.

- Elmi planda bədii simvolların mənalarının açılması əsərin ideyasının mənalandırılmasında mühüm rol oynayır.

- Ən yeni nəsrdə bədii simvolikanın analizi yazıçıların bədii simvolikaya marağını, yazılma metodundan, o cümlədən niyyət və fərdi yaradıcılıq manerasından asılı olaraq onun tipoloji növ müxtəlifliyini göstərir.

- Müasir yazıçılar həm ənənəvi universal simvollardan, həm də yazıçıların gerçəkliyin hadisələrinə baxışını ifadə edən fərdi, müəllif simvollarından istifadə edirlər.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU AŞAĞIDAKI NƏŞRLƏRDƏ ÖZ ƏKSİNİ TAPMIŞDIR:

1. Национальные реалии и их осмысление в произведениях Бориса Акунина // 8-th International Symposium. National literatures and the progess of cultural globalization. Vol II, – Tbilisi: – 24-25-26 september, – 2014, – p. 103-110.
2. Борис Акунин: география художественного пространства // Doktorantların və gənc tədqiqatçıların XIX Respublika elmi konfransının materialları (2 cilddə), II cild, – Bakı: Mütərcim, – 7-8 aprel, – 2015, – s. 87-89.
3. О понятии «символ» как универсальной эстетической категории // Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika elmi konfransının materialları (2 cilddə), II cild, – Bakı: Mütərcim, – 19-20 dekabr, – 2013, – s. 140-142.
4. Традиции и новаторство в использовании символики в художественной литературе // 9-th International Symposium. Tradition and contemporary literature. Vol II, – Tbilisi: – 23-25 september, – 2015, – p. 306-316.
5. Понимание символа в системе эстетических взглядов Д.С. Мережковского // – Баку: Актуальные проблемы изучения гуманитарных наук. Межвузовский сборник научных статей, – Мутарджим, – 2017, – с. 183-187.
6. Эстетические принципы символизма // – Баку: Ученые вести, Азербайджанский университет языков, 2017. – Том II, Мутарджим, – с. 193-197.
7. Мифологические символы в произведениях Бориса Акунина // – Bakı: Elmi xəbərlər, Humanitar elmlər seriyası, Universitet «Western Caspian», 2018. №4, – с. 57-63.
8. Образ Эраста Фандорина в произведениях Бориса Акунина // – Bakı: Filologiya məsələləri, Elm və təhsil, Azərbaycan Milli Elmlər Akademiyası M.Fizuli adına Əlyazmalar İnstitutu, – 2019. №6, – s. 216-221.
9. Символы и их значение в период античности // – Bakı: Filologiya məsələləri, Elm və təhsil, Azərbaycan Milli Elmlər

Akademiyası M.Fizuli adına Əlyazmalar İnstitutu, – 2019. №6, – s. 305-311.
10. Сакральное значение символа «оружие» в эпоху Средневековья // 1st International Conference: Modern Information, Measurement and Control Systems: Problems and Perspectives (MIMCS 2019), – Baku: – 01-02 July, – 2019, – p. 82-83
11. Bilingualism and matter of symbol in modern World literature // Fist International Congress on bilingualism studies and European Turks, – Paris: – 28 October, – 2018, – p.15
12. Мифологическая природа символов-образов в творчестве Л.Улицкой // – Горно-Алтайск: Мир науки, культуры, образования, Международный научный журнал, – 2020. № 2(81), – с. 535-538.
13. Метаморфозы символики в творчестве Т.Толстой // – Москва: Инновационные подходы в современной науке: сб. ст. по материалам XCIX междунар. науч.-практ. конф., – 2021. № 15(99), – Интернаука, – с.30-33.
14. Эклектизм символики и постмодерна как ведущее начало творчества В.Пелевина // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş "Azərbaycanşünaslığın aktual problemləri" XIII Beynəlxalq elmi-praktik konfrans, – Bakı: – 4-5 may, – 2022, – s.182-186.
15. Ən müasir ədəbiyyatda "kütləvi" və "elitar ədəbiyyatın" innovativ aspektləri // 5-ci Beynəlxalq elm və təhsildə innovativ texnologiyalar konfransı, – Şamaxı, Azərbaycan, 24-25 may, – 2022, – s.222-225.
16. Philosophy Of Postmodernism And Its Influence On Modern Education // 8th International Conference on Lifelong Education and Leadership for All-ICLEL, – 2022, –Spain, Granada, – Yuly 05-07, – 2022, – s. 192-196.
17. Азербайджанские аллюзии в произведениях Бориса Акунина // Azərbaycanşünaslığın aktual məsələləri. Beynəlxalq elmi konfrans, – Bakı, Azərbaycan, – 04-05 may, – 2023, – s. 638-642.

Dissertasiyanın müdafiəsi 23 iyun 2023-cü il tarixində saat ___ Bakı Slavyan Universiteti nəzdində fəaliyyət göstərən ED 2.13 Dissertasiya şürasının iclasında keçiriləcək.

Ünvan: AZ1014, Bakı, S.Rüstəm küç. 33, II mərtəbə, Bakı Slavyan Universiteti.

Dissertassiya ilə Bakı Slavyan Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Slavyan Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 22 may 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: __.__.2023

Kağızın formatı: A5

Həcm: 50923

Tiraj: 30